□□□□□□□□□□ -□□ □□□□
□□□□□□□□□□, 01 □□□□□□□ 2016 15:09

Az□rbaycan Respublikasının Prezidenti İlham □liyev martın 31-d□ Vaşinqtonda Amerika Birl□şmiş Ştatlarının ictimai xadiml□ri – "Armitage International" şirk□tinin prezidenti Riçard Armitac v□ Karnegi Fondunun prezidenti Uilyam Börns il□ görüşüb.



Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənməsi və möhkəmlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı. ötən dövrdə Azərbaycan ilə ABŞ-ın enerji, təhlükəsizlik, sülhyaratma və digər sahələrdə yaxşı əməkdaşlığının olduğu vurğulandı. ölkələrimiz arasında münasibətlərin güclü təməl üzərində qurulduğu, hazırda əlaqələrin yeni mərhələyə daxil olduğu qeyd edildi. Azərbaycan-ABŞ əməkdaşlığının bundan sonra da bütün sahələrdə genişlənəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparıldı.